**2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar vətəndaş Elman Niyazovun 26 dekabr 2009-cu il tarixli 137 saylı müraciətinə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar Ağcabədi rayonu, Xocavənd kənd sakini bələdiyyə üzvlüyünə namizəd Elman Niyazov 2009-cu il dekabrın 26-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına teleqramla müraciət edərək, səsvermə və səslərin hesablanması zamanı bəzi qanun pozuntularının baş verməsini bildirmiş və qanunla müəyyən olunmuş qaydada tədbirlər görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Müraciət araşdırılarkən müəyyən edilmişdir ki, iddia edilən qanun pozuntuları seçki dairəsinin ərazisində olan seçki məntəqəsini əhatə etdiyindən, müraciət aidiyyəti üzrə araşdırılması və müvafiq tədbirlərin görülməsi üçün 82 saylı Ağcabədi seçki dairəsinin dairə seçki komissiyasına göndərilməlidir.

Belə ki, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 31.1.1-ci və 31.1.2-ci maddələrinə əsasən seçki dairəsinin ərazisində Azərbaycan Respublikası vətəndaşlarının seçki hüquqlarına riayət olunmasına nəzarəti, Seçki Məcəlləsinin qaydalarının pozulması ilə bağlı şikayətlərə baxıb öz səlahiyyətləri daxilində qərarın qəbul edilməsini dairə seçki komissiyaları həyata keçirir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin və yuxarıda qeyd edilən Təlimatın 8.6-cı bəndinə əsasən şikayət və ya müraciət aiddiyat qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a əsasən **q ə r a r a  a l ı r :**

1. Vətəndaş Elman Niyazovun Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 26 dekabr 2009-cu il tarixli 137 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə 82 saylı Ağcabədi seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Qərarın icrası barədə Mərkəzi Seçki Komissiyasına məlumat verilsin.

3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr Məzahir Pənahov

| | |
|---|---|
| Katib | Natiq Məmmədov |
| Üzvlər | Fuad Cavadov |
| | Ramiz İbrahimov |
| | Validə Kazımova |
| | Qabil Orucov |
| | Tofiq Həsənov |
| | İlham Məmmədov |
| | Azər Tağıyev |
| | Tamam Cəfərova |
| | Rövşən İsmayılov |
| | Oktay Hümbətli |